**UOT:94.**

# ATƏT-IN MINSK QRUPUNUN YARADILMASI VƏ IŞ FƏALIYYƏTI

***Şahmarova Dilşad***
***BDU-nun Qazax filialı***
***dilshad.shahmarova@.bk.ru***

**Xülasə:** *Bu gün Dağlıq Qarabağ konfilktini müharibə yolu ilə həll etdik. Buna görə dünya dövlətlərində ikili fikirlər yarandı. Bu məsələ sülh yolu ilə həll edilə bilərdi deyə adekvat yoluna üstünlük verənlər oldu. Tarixi işıqlandırmaq lazımdı ki, ATƏT-in Minsk qrupunun iş fəaliyyətini işıqlandıraq. Bu yolda hansı addımlar atıldığı göstərilsin.*

*ATƏT-in Minsk qrupunun yaradılmasında Azərbaycan aktiv iştirak edirdi. Sulh yolu ilə bu məsələnin həll olunmasında da qrupa ümidləri boyuk idi. Hər qəbul etdiyi, atdığı addımda da ciddi yanaşdı. Bu məsələnin Azərbaycanın yaralı yeri olduğunu həmişə vurğuladı. Lakin bəslənən ümidlər özünü bu gün doğrultmadı. Yarandığı ilk gündən belə Azərbaycan Minsk qrupu daim bu tərfdən dəstək aldı.*

**Acar sozler:**Minsk qrupu,Dağlıq Qarabağ,həmsədrlər,sülhməramlı

**Ключевое слово:** Группа Минск, Нагорный Карабах, Сопредседатели , миротворцы .

**Key words:**Group Minsk,peacemaker,Nagorna -Karabakh

70 ilə yaxın dünyada əsən SSRI rüzgarı nəhayət kəsdi. Bu firtına dövrünün gətirdiyi dağıntıların biri də Azərbaycana düşdü. SSRI ittifaqda yaratdığı 30-dan çox münaqişə ocaqlarından ən qarışıq hala salınan konfiliktlərdən biri Qarabağ məsələsi oldu. Azadlıq hərakatı başlayanda yenidən gündəmə gətirilən Qarabağ məsələsi 1988-ci ildən aktivləşdirildi. 1992-ci ildən aktiv hərbi əməliyyatlar başlanıldı.

1992-ci ildən başlayaraq Dağlığ Qarabağ konfilikti beynəxalq aləmin əsas probleminə çevrildi.1992-ci ildə 30 yanvarda Azərbaycan Respublikası ATƏM-in üzvü seçildi. 10 iyulda Helsinskidə qarşılıqlı dokumentlər imzalandi. Bundan sonra təşkilatın tam hüquqlu üzvünə çevrildi. Bundan sonra Dağlıq Qarabağ konfilikti təşkilat üzvü dövlətlərin əsas diqqət mərkəzində oldu. 24 martda ATƏM-in Xarici işlər Nazirlərinin Şurasında Dağlıq Qarabağ probleminə həsr olunmuş konfiliktli ərazilərdə sülhü təmin edilməsinə dair müzakirələr aparıldı.Sülhün təşkil edilməsi və həlli üçün nəzarətçi qrupun yaradılması nəzərdə tutuldu. Əsas nizamnamənın yaradılması sülhə xidmət etməsi nəzərdə tutulurdu. Minsk qrupu adlandırılan qrupun tərkibinə 11 dövlət daxil idi: ABS, Rusiya,Türkiyə, Fransa, Almaniya, Italiya, Çexiya, Slovakiya, Isveç, Azərbaycan, Ermənistan.

1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən isğal edilməsi vəziyyəti dəyişdi və yeni siyasi problemlər yaratdi. Minsk qrupunun yolunda yeni maneələr yaratdi. Minsk çərçivəsində münaqişənin sülh yolu ilə həlli onsuz da çox cətin və müşkül məsələ idi. Ermənistan tərəfi də qeyrikonstruktiv mövqe seçərək məsələni həll edilməz vəziyyətə salmaq uçun hər yoldan istifade edirdi. Bu da onsuz da dondurulmuş vəziyyəti daha da çıxılmaz vəziyyətə salırdı.

Tarixə nəzər salsaq görərik ki, azərbaycan-erməni konfiliktini mərhələlərə bölsək bu məsələ həmişə Rusiya-Qərb münasibətlərindən asılı olub. 1992-ci il martın əvvəllərində Minsk qrupu yaradılana kimi Rusiya bu insidenti dəstəkləmişdi amma vəziyyət gərginləşdikcə beynəlxalq siyasi don aldıqdan sonra Rusiya və onun siyasi ətrafını narahat etməyə və ciddi məşğul etməyə başladı. Bu şərtlərdə Rusiya çalışdı ki, bu insidetnti

beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən alsın özü bu işdə əsas faktora çevrilsin. Bununla da beynəlxalq aləmdə və bu regionda zəifləmiş mövqeyini yenidən möhkəmlətsin.

Bu məqsədinə nail olmaq uçun Rusiya Azərbaycana siyasi təzyiq göstərməyə başladı. Özünün sülhməramlı qüvvələrini konfiliktli zonaya gətirməyə çalışdı. Bu məqsədinə nail ola bilməyəndə başqa yol seçdi. Ermənistandakı öz ordusunun sayını artırdı, gizli açıq yolla ordunu silahlandırdı. Hansı ki, həmin qüvvələrlə də Azərbaycan torpaqlarını işğal etməyə başladı.

1997-ci ilin əvvəllərində məlum oldu ki, Rusiya qeyri qanuni yolla Ermənistana 1 milyard dollar dəyərində müasir silahlar satmişdı. Elə o vaxtlar da bəlli oldu ki, 1993-cü ildə Azərbaycan-Ermənistan konfiliktinin qaynar vaxtlarında hərbi əməliyyatlar getdiyi vaxtda yerləsdirməyə başlayıbdır. Erməni silahli qüvvələrinin əli ilə Azərbaycan torpaqlarının isğalına şərait yaratdi. Ermənistanı silahlandırmaqla Rusiya bu isğala atəşkəsdən sonra da davam etmişdir.

1993-cü ildən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xarici siyasətin əsas özəyinə çevirmişdi. Hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev bu konfiliktin həlli yolunda ikitərəfli və coxtərəfli görüşlərin sayını artıraraq daha səylə işləməyə başladi. ATƏT-in həmsədrlərinin dövlət başçılarının yüksək səviyyəli görüşləri təşkil olundu. Beynəlxalq formlarda belə Qarabağ problemi aktivləşdirilirdi. Ermənistan dövlətinin başçıları ilə də belə debatlar təşkil olundu. Dövlətmizin xarici siyasətinin ana xəttini təşkil etdi. Heyder Əliyevin təxirəsalınmaz əsas tapşırığı Azərbaycanın müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi idi. Dövlət çərvçivəsində siyasi sabitliyi təşkil etmək çox vacib məsələ olduğu dövrün olduğunu da unutmayaq. Iki dövlət arasında bu konfiliktin həlli yolunda qərarlı addımın atılması şərt idi. Sağlam düşünmək, dövlətin gücünü bərpa etmək itrilmiş hərbi qüvvələr üçün vaxt lazım idi. Buna görə də bizə Azərbaycan Respublikasına sülh daha çox lazım idi. Bu vaxtı qazanmaq üçün şərtlər və zaman Azərbaycanın xeyrinə işləmədiyi bir vaxtda bu sülh ən vacib missiya idi.

1994-cü ildə 12 mayda atəşkəs elan olundu. Amma ATƏT-in Minsk qrupu çərçivəsində problemin həlli yolunda daimi danişiqlar aparılmağa başladı. 1994-cü il 5-6 dekabrda ATƏT-in Budapeşt sammitində konfiliktli ərazilərdə problemin həlli üçün beynəlxalq sülhməramlı qrupun yaradılmasına qərar verildi. Bundan başqa xüsusi dövlətlərin təşkili ilə qrup yaradılması nəzərdə tutuldu. Bu ərazidə Rusiyanın daha maraqlı olduğunu nəzərə alsaq Rusiya bu fikri daha cox dəstəklədi. Bura Rusiya Finlandiyanın daxil olması nəzərə alındı. Bu həm də Rusiya-Qərb münasibətlərini biraz yumşalda bilərdi. Ancaq Rusiyanın təkcə bu konfiliktdə istirak etmə cəhdinin boşa cıxması demək idi. ATƏT-in Lissabon sammitində 1996-cı il 2-3 dekabrda sənəd qəbul olundu. Bu siyasi yolla azərbaycan –ermənistan arasındakı konfiliktin həlli yolunda boyuk nailiyyət idi. Konfiliktlərin sülhlə həll olunması yolunda bu sənəd beynəlxalq huquqi bazaya malik xüsusi material idi. Gərgin əməyin sayəsində və siyasi talantla Heydər Əliyev Lissabon sammitində xüsusi elan qəbul olundu. Siyasi hüquqlar çərçivəsində konfiliktin həlli müəyyən olundu. Bu elanı dünyanın 53 dövləti dəstəklədi (Ermənistandan başqa).

Bu sammitdən sonra Minsk qrupunun həmsədrləri müəyyən edildi. Rusiya bəlli idi. Tarixboyu Qafqazda siyasi nüfuzunu saxlamaq və qorumaq uçun hər yoldan istifadə etdiyi bəllidi. Bununla yanaşi ABŞ və Fransa dövlətləri müəyyən olundu. Bu dövrlərdə Minsk qrupu çox aktiv fəaliyyət göstərməyə başladı. 1997-ci ilin ikinci yarısında bunu daha çox görürük. Lissabon prinsiplərinə dayanaraq problemin həllini 2 hissəli həyata keçirmək təşkil etmək istədilər. Isğal olunmuş ərazilərdən 7 rayonun hansı ki, Dağlıq Qarabağ ərazisinə daxil deyildi onların qaytarılmasının müzakirələrinə başlanıldı. Bu təklifdə "paket" lə həll edilməli idi. Bu

zaman eyni vaxtda bütün ərazilərin həmçinin Dağalıq Qarabağ ərazisinin də taleyi muzakirə olunub həll edilməli idi. Ikinci təklifdə mərhəllərlə həll təklif olunurdu. Azərbaycan prezidenti buna razı olmasa da konfiliktin həlli yolunda addıma ehtiyac olduğu uçun bu təklifə belə razılaşdı. Ancaq Ermənistan tərəfi həmişəki kimi bu məsələnin həll olunmaması üçün əlindən gələni edirdi, buna da bir addım atmayıb məsləni zorlaşdırırdı.1998-ci ildə dünya praktikasında mövcud olmayan "ümumi dövlət" təklifini dövlət basçısı qəbul etmədi. 1999-cu ildə Azərbaycan prezidenti Heydər Əliyev rəsmi yazılı surətdə Minsk qrupunun həmsədrlərinə müraciət edib fəaliyyətlərini ciddi tənqid etdi."Ümumi dövlət " prinsipini tənqid etdi və bu konfiliktin həllində yeni maneə olduğunu bildirdi.

***Ədəbiyyat***

1. Əli həsənov muasir beynelxalq munasibətlər və Azərbaycanin xarici siyasəti.b.2007
2. M.Baxışov.Beynəlxalq həyat.b.2003.
3. Azərbaycan tarixi.7cild.b.2007

## СОЗДАНИЕ И ФУНКЦИОНИРОВАНИЯ МИНСКОЙ ГРУППЫ ОВСЕ

***Шахмарова Дильшад***

***Резюме***

Конфликт между двух стран пришлось решить мирным путем. Для урелигурования этой проблемы создали Минскую группу ОВСЕ. Назначили структуру рабочего мероприятия.

## THE CREATION AND ACTIVITY OF MINSK GROUP OF OSCE

***Shaxmarova Dilshad***

***Summary***

Great confilikt has between two country.Founder new group which called Minsk in OSCE .They must decide this confilikt with peace way.

***Rəyçi dos.Arif Veyisov***
***Daxil olduğu tarix 12 dekabr 2022-ci il***

**UOT: 80**

## LES DIFFICULTES RENCONTRES DANS L' ACQUISITION DES ERREURS DE GRAMMAIRE DES ETUDIANTS AZERBAÏDJANAIS

***Orucova Ruqiyyə***
***Gəncə Dövlət Universiteti***
***Ruqiyyə.orucova@mail.ru***

En tant d'évaluation des connaissances des étudiants,le professeur rencontre les diverses fautes.Le professeur jette un regard sur ces feuilles,et analyse ces fautes.C'est mieux si le professeur corrige les fautes avec les étudiants.Tour à tour les étudiants disent leurs propres versions et puis il choisit les meilleures,et donne une bonne explication qui doit etre claire pour les autres.Comme ça,le proffeseur est à la disposition des étudiants et ils peuvent poser les questions qui les intéressent beacoup.Dans ce cas l'interaction se fait entre professeur –étudiant étudiant-étudiant.Chaque étudiant doit pouvoir trouver les démarches et